# Mərakeş Kralı COP29-a dəvət olunub

**Aprelin 26-da Azərbaycanın Mərakeş Krallığındakı səfiri Nazim Səmədov Mərakeşin xarici işlər, Afrika əməkdaşlığı və xaricdə yaşayan mərakeşlilər naziri Nasser Burita ilə görüşüb.**



Azərbaycan Respublikasının Mərakeşdəki səfirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı 2024-cü ilin noyabrında ölkəmizin ev-sahibliyi edəcəyi BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirakla bağlı Azərbaycan Prezidenti İlham Əliyevin Mərakeş Kralı VI Məhəmmədə ünvanladığı dəvət məktubu N.Buritaya təqdim olunub.

---

Azərbaycan.- 2024.- 28 aprel, № 86.- S.6.